# KƏNDDƏ MƏDƏNİYYƏT BAYRAMI

**Viləş kəndi Masallıda qəhrəmanlar yurdu kimi tanınır. Aprel döyüşlərində göstərdiyi igidliyə, fədakarlığa görə "Hərbi xidmətdə fərqlənməyə görə" III dərəcəli medalla təltif olunmuş şəhid Nurlan Əsgərli və 44 günlük Vətən müharibəsində "Vətən Müharibəsi Qəhrəmanı" ali adına layiq görülmüş şəhid İntiqam Əsgərli qardaşları bu kəndin yetirmələridirlər. Rayonda ilk modern tipli təhsil müəssisəsi də Viləş kəndində fəaliyyət göstərir.**




Bu günlərdə kəndin mərkəzində əsl bayram ovqatı duyulurdu. "Mədəniyyət kəndlərdə" adlı mədəniyyət-yaradıcılıq layihəsinin cari ildə ilk tədbiri burada keçirilirdi. Masallı Rayon İcra Hakimiyyətinin rəsmiləri, mədəniyyət işçiləri, ziyalılar, gənclər, kənd ictimaiyyətinin nümayəndələri mədəniyyət bayramına toplaşmışdılar.

Masallı Regional Mədəniyyət İdarəsinin təşəbbüsü və dəstəyi ilə keçirilən bayram tədbirində ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda əbədiyyətə qovuşmuş şəhidlərin xatirəsi ehtiramla yad edilib.

Sonra Masallı Regional Mədəniyyət İdarəsinin rəisi Bəxtiyar Qılıncov layihənin məqsədi və layihə çərçivəsində həyata keçirilən tədbirlərdən danışıb. Bildirib ki, kəndlərdə mədəniyyət müəssisələrinin fəaliyyətinin yeni nəzəri-konseptual yanaşmalara və çağırışlara uyğun qurulması, gənc istedadların aşkarlanaraq müəssisələrin işinə cəlb edilməsi prioritet vəzifələrdəndir. Artıq bu istiqamətdə xeyli iş görülüb və uğurlar əldə olunub.

Masallı Rayon İcra Hakimiyyəti başçısının müavini Aybəniz Qafarova çıxışında qeyd edib ki, mədəniyyət sahəsində yeni layihənin reallaşması gənclər arasında böyük marağa səbəb olub. İstedadlı gənclər üçün geniş meydan açılıb, onlara öz yaradıcı potensiallarını nümayiş etdirmələri üçün əlverişli şərait yaranıb.

Şəhid Nurlan və İntiqam Əsgərli qardaşlarının anası Ziba xanım kənddə mədəniyyətin inkişafından, milli adət-ənənələrimizin qorunub saxlanılmasından razılıqla söhbət açıb. Tədbirin Viləş kəndində təşkil olunmasının sakinlər tərəfindən sevinclə qarşılandığını və yüksək əhvali-ruhiyyə yaratdığını bildirib.

Sonra N.Gəncəvi adına Masallı Rayon Mədəniyyət Mərkəzinin və Viləş kənd klubunun birgə təşkil etdiyi yaradıcılıq sərgisinə və istedadlı gənclərin zövqlə hazırladıqları əl işlərinə baxış keçirilib. Mədəniyyət Mərkəzinin kollektivi geniş konsert proqramı ilə çıxış edib. Biri-birindən şən, maraqlı musiqilər, "Halay" folklor xalq ansamblının ifa etdiyi milli rəqslər maraqla qarşılanıb.

Tədbirin sonunda Viləş kənd məktəbinin istedadlı şagirdlərindən bir qrupuna Masallı Regional Mədəniyyət İdarəsinin "Təşəkkürnamə"ləri təqdim edilib.

**Əlisəfa HƏSƏNOV,**
**"Respublika".**

Respublika.- 2022.- 15 aprel.- S.13.